# SİYASİ MƏDƏNİYYƏTİN MƏZMUNU VƏ STRUKTURU

**Mehriban Məmmədova,**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
E-mail: mmf.mmmdova@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* M.M. Əmirov,
*tarix.ü.fəls.dok., dos.* S. Məmmədova

***Açar sözlər:*** *mədəniyyət anlayışı, siyasi mədəniyyətin məzmun və strukturu, siyasi şüur, siyasi mədəniyyətə yanaşma*

***Ключевые слова:*** *культура, содержание и структура политической культуры, политическое сознание, подход к политической культуре*

***Key words:*** *culture, the content and structure of political culture, political consciousness, approach to political culture*

Problemlə bağlı çoxsaylı ədəbiyyatlarda mədəniyyətə müxtəlif təriflər verilib. Belə ki, "mədəniyyət ictimai tələbatı ödəmək məqsədi ilə bəşəriyyətin yaratdığı və yaratmaqda davam etdiyi maddi və mənəvi sərvətlərin toplusudur" (1, 402). Siyasi mədəniyyəti ümumi mədəniyyətin bir hissəsi hesab etmək olar (2, 230). Siyasi mədəniyyət xüsusi mənəvi hadisədir və özünü hakimiyyət sferasında göstərir. Siyasi proseslər və siyasi həyatda baş verən hadisələr əhəmiyyətli dərəcədə vətəndaşların siyasi mədəniyyəti ilə bağlıdır. Siyasi mədəniyyət anlayışını birinci dəfə XVIII əsrdə alman filosofu İ. Gerda əsərində istifadə etmişdir. Siyasi mədəniyyət haqqında elmi nəzəriyyə isə XX əsrin ortalarına aiddir. Amerika tədqiqatçısı X. Fayer 1956-cı ildə yazdığı "Böyük Avropa dövlətlərinin idarəçiliyi sistemləri "əsərində ilk dəfə siyasi mədəniyyət kateqoriyası məsələsinə toxunmuşdur (3, 262). Siyasi mədəniyyət termininin ilkin tədqiqatçıları kimi Q.Almond və S.Verbanı da nümunə kimi göstərmək olar. Bu ABŞ politoloqları öz araşdırmalarının nəticəsi olaraq ... "ən çox demokratik rejimin yüksək siyasi mədəniyyət tələb etdiyi qənaətinə gəlmişlər"(4, 172).

Siyasi mədəniyyət haqqında çoxsaylı elmi tədqiqatlar aparılsa da Q. Almond və Q. Pouelin birgə təklif etdiyi definisiya hələ də gündəmdədir. Bu iki tədqiqatçı siyasi mədəniyyəti ... "siyasi sistemin iştirakçıları arasında siyasi münasibətdə özünü göstərən fərdi mövqe və meyllərin nümunəsi hesab etmişlər". (2, 231) Onların bu fikrinin polyak politoloq Y. Vyatrın siyasi mədəniyyət anlayışı ilə bağlı düşüncəsinə böyük təsiri olmuşdur. Vyatr siyasi mədəniyyəti ... "vətəndaşların hakimiyyətlə bağlı mövqe ,davranış və nümunələrinin məcmusu hesab etmişdir" (3, 263).

Politologiya ilə bağlı ədəbiyyatlarda siyasi mədəniyyətə əsasən normativ, evristik, psixoloji, kompleks, aksioloji, sosial mövqelərdən nəzər yetirilib. **Normativ yanaşma** siyasi sistem tərəfindən qəbul edilən davranış formalarıdır. **Evristik** yanaşma arzu olunan davranış fərziyyələridir. **Sosial psixoloji** yanaşmada siyasi mədəniyyət müəyyən çərçivədə saxlanılır və siyasi mədəniyyəti sosial amillər müəyyən edir. **Aksioloji** yanaşmada siyasi mədəniyyət müəyyən qaydalardan ibarət dəyərlər məcmusudur (5, 49-50).

İnsanlarda siyasi mədəniyyəti formalaşdırmaq üçün əvvəlcə siyasi təfəkkür və şüurunu inkişaf etdirmək lazımdır. Siyasi şüurun adi və nəzəri – ideoloji formalarını tədqiq edərkən mühüm funksional istiqamət üzə çıxır. Siyasi şüurun bu iki formasının öyrənilməsi siyasi mədəniyyətin məzmununu daha dərin başa düşməyə kömək edir. Adi praktik şüur özündə sistemləşdirilməyən təsəvvürləri, müxtəlif sosial qrupların hiss və əhval ruhiyyəsini birləşdirir. Nəzəri ideoloji şüura gəldikdə isə "millətin, dövlətin mənafeyini ifadə edən ideyalar və cəmiyyətin hansı formada təşkil olunması, quruluşu haqqında baxışlar sistemidir". (1,409)

Siyasətdə vətəndaşların iştirakının 4 səviyyəsi var: 1) Funksional səviyyə 2) dolayı yolla və ya birbaşa cəlbedilmə 3) sırf siyasi və qeyri-siyasi səviyyə 4) siyasi prosesin mərhələsindən asılı olan səviyyə (5, 53).

Müasir dövrdə siyasi mədəniyyətin məzmunu və mahiyyəti ilə bağlı 3 əsas mövqe vardır. Q. Almond, D. Duvayn və b. alimlər siyasi mədəniyyəti mənəvi hadisələrin toplusu kimi qiymətləndirərək siyasətin subyektiv məzmunu ilə eyniləşdirmişlər. 2-ci qrupa daxil olan alimlər isə siyasi mədəniyyəti normativ tələblərin göstəricisi yaxud siyasətdəki davranış nümunəsi hesab etmişlər. Bu qrupa C. Vayt və C. Pleyno daxildir. I. Şapiro, V. Rozenbaum və s. alimlər daxildir.

3-cü qrupa daxil olan tədqiqatçılar isə siyasi mədəniyyəti "davranışda özünü göstərən fəaliyyət tərzi kimi başa düşmüşlər" (3, 233).

Siyasi sistemi müdafiə edən sərvətlər və siyasi sistemin dəyişdirilməsinə təsir edən amillər siyasi mədəniyyətin məzmununa daxildir. Bu xüsusiyyət siyasi mədəniyyət və bütün siyasi sistemin inkişafının göstəricisi hesab olunur. Elə bu səbəbdən "siyasi sistemdə mövcud olan qrupların siyasi inamının dərəcəsini, fərqlərini mütləq dərk etmək lazımdır" (1, 412).

X. İbrahimli siyasi mədəniyyətin komponentlərdən 3-nü xüsusi qeyd edir. Bunlara ... "siyasi düşüncə mədəniyyəti, siyasi davranış mədəniyyəti, siyasi institutların fəaliyyət mədəniyyəti daxildir" (4, 173).

Siyasi mədəniyyətin məzmun və mahiyyətini düzgün dərk etmək üçün strukturunu anlamaq çox əhəmiyyətli hesab olunur. Milli - mədəni, sosial iqtisadi, ictimai – tarixi və s. ünsürlər siyasi mədəniyyətin strukturunu təşkil edir. Bu amillər daimi olması və ancaq cəmiyyətdə xüsusi dəyişiklik baş verən zaman yeni cəhətlər qazanması ilə səciyyələnir (6, 312). Bir sıra ədəbiyyatlarda siyasi mədəniyyətin strukturunu siyasi hadisələri qiymətləndirmə, siyasi dünyagörüşü və dövlət hakimiyyətinə münasibət baxımından 3 istiqamətə bölürlər (5, 52). Dünyagörüşü baxımından siyasi mədəniyyətin strukturu zorakılıq və ya azadlığa, fərdi və kollektiv sərvətlərə və s. ideologiyalara ya rəğbət bəsləmək, ya da onları qəbul etməməkdir. Dövlət hakimiyyətinə münasibət baxımından ya dövlətin şəxsiyyətdən, ya da şəxsiyyət hüquqlarının dövlətdən üstün olduğunu qəbul etməkdən ibarətdir. Bu xüsusiyyət dövlətin vətəndaşların hüquq və vəzifələrinə olan münasibətini də əks etdirir. "Siyasi hadisələri qiymətləndirmə baxımından isə insanın müxtəlif siyasi hadisələrə təsir edib, obyektiv təhlil və ümumiləşdirmə bacarığını özündə əks etdirir" (1, 417). Siyasi təfəkkür mədəniyyəti və tərzi, siyasi davranış və fəaliyyət, siyasi baxımdan hiss və emosiyalar və s. siyasi mədəniyyətin strukturunu formalaşdıran əsas amillər hesab olunur (5, 52). Siyasi mədəniyyətin strukturuna həmçinin ayrı-ayrı şəxslər, cəmiyyət və dövlət arasındakı münasibətlərin prinsipləri daxildir.(6, 312) Siyasi şüur, siyasi davranış və siyasi təsisatların mədəniyyəti siyasi mədəniyyətin strukturunu təşkil edən amillərdəndir (3, 233).

"Siyasi mədəniyyətin strukturu subyektin davranış texnologiyasını əks etdirir. Siyasi mədəniyyət siyasi davranış hesabına reallaşır" (3, 233-234).

**Problemin yeniliyi ondan ibarətdir ki,** siyasi mədəniyyətin məzmunu və strukturuna dair ədəbiyyatları öyrənərək ümumiləşdirməsi nəticəsində siyasi mədəniyyətin məzmunu və strukturunun sistemi yaradılmışdır.

**Problemin nəzəri əhəmiyyəti** ondan ibarətdir ki, siyasi mədəniyyətin məzmununa dair iş sistemi tarixin tədrisi metodikasını nəzəri cəhətdən zənginləşdirir və ona bir töhfədir.

**Problemin praktik əhəmiyyəti** ondan ibarətdir ki, müəllif tərəfindən irəli sürülən müddəalardan və təkliflərdən ümumtəhsil məktəblərinin tarix müəllimləri özlərinin gündəlik fəaliyyətində istifadə edə biləcəklər.

## ƏDƏBİYYAT

1. Əfəndiyev. M. Siyasi elmin problemləri. Bakı: Siyasət, 1998.
2. Şirinov A., İbadov N. Politologiya. Bakı, 2015.
3. Şirəliyev H., Əhmədov Ə. Politologiya. Bakı: Apastroff, 2014.
4. İbrahimli .X. Politologiya. Bakı, 2012.
5. Əmirov M. Tarix tədrisində şagirdlərdə siyasi mədəniyyətin formalaşdırılması üzrə işin sistemi. Bakı: Mütərcim, 2004.
6. Əfəndiyev M. Politologiya. Bakı: Elm, 2011.

**М.Ф. Мамедова**

## СОДЕРЖАНИЕ И СТРУКТУРА ПОЛИТИЧЕСКОЙ КУЛЬТУРЫ

***РЕЗЮМЕ***

Факторы, защищающие и меняющие политическую систему, включают в себя содержание политической культуры. Для правильного понимания содержания политической культуры необходимо осознать ее структуру. Политическая ментальность, политическое поведение, политический смысл и эмоции и т. д. формируют структуру политической культуры. Социально-экономические, социально-исторические и другие факторы формируют структуру политической культуры. Структура политической культуры отражает поведение субъекта. В статье обоснована актуальность данной проблемы.

**M.F. Mammadova**

## THE CONTENT AND STRUCTURE OF POLITICAL CULTURE

***SUMMARY***

The factors defending and changing political system include the content of political culture. For correctly understanding the content of political culture, it is necessary to realize the structure of it. Political mentality, political behaviour, political sense and emotions and so on forms the structure of political culture. Social economic, social - historical etc. factors form structure of political culture. The structure of political culture reflects the behaviour of subject . The urgency of the problem is substantiated in the article.

**Redaksiyaya daxil olub:** 06.12.2017